# Görkəmli alim və ictimai-siyasi xadim Vəli Axundovun 100 illik yubileyi qeyd olunub





Mayın 31-də Azərbaycan Milli Elmlər Akademiyasında görkəmli alim, ictimai-siyasi və dövlət xadimi, tibb elmləri doktoru, akademik Vəli Axundovun 100 illik yubileyinə həsr olunan tədbir keçirilib.

Mərasimi AMEA-nın prezidenti, akademik Akif Əlizadə açaraq tədbirin Prezident İlham Əliyevin "Akademik V.Y.Axundovun 100 illik yubileyinin keçirilməsi haqqında" 15 yanvar 2016 -cı il tarixli sərəncamına müvafiq olaraq təşkil olunduğunu bildirib, görkəmli alimin həyatı, ictimai-siyasi və elmi fəaliyyəti barədə ətraflı danışıb. Qeyd olunub ki, akademik Vəli Axundov dövlət xadimi olmaqla yanaşı, eyni zamanda elmi-təşkilati və tibbi-nəzəri istiqamətləri özündə birləşdirən çoxşaxəli fəaliyyət göstərib, XX əsrin Azərbaycan elmi-ictimai düşüncəsinin təşəkkülündə və inkişafında müstəsna rol oynayıb.

AMEA-nın rəhbəri görkəmli alimin 1949-1952-ci illərdə Azərbaycan SSR səhiyyə nazirinin müavini, 1952-1953-cü illərdə Bakı Vilayəti səhiyyə şöbəsinin müdiri, 1953-1954-cü illərdə Azərbaycan KP MK-da inzibati, ticarət-maliyyə və plan orqanları şöbəsi müdirinin müavini vəzifələrində çalışdığını tədbir iştirakçılarının diqqətinə çatdırıb. V.Axundovun 1958-ci ildə əvvəlcə Azərbaycan KP MK-nın katibi, sonra Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifəsinə təyin olunduğu müddətdə işgüzarlığı, təvazökarlığı, özünə və tabeliyində olanlara yüksək tələbkarlığı ilə fərqləndiyini vurğulayıb.

Akademik Akif Əlizadə Vəli Axundovun fəaliyyətinə dövlət səviyyəsində daim yüksək qiymət verildiyini qeyd edib.1996-cı ildə alimin 80 illiyinə həsr olunmuş yubiley yığıncağında ümummilli lider Heydər Əliyevin şəxsən iştirak etdiyini və ulu öndərin V.Axundovun Azərbaycan tarixindəki roluna ən obyektiv qiymət verdiyini bir daha xatırladıb. Bildirilib ki, Vəli Axundov ictimai və dövlət xadimi olmaqla yanaşı, eyni zamanda elm xadimi idi. Hansı vəzifədə çalışmasından asılı olmayaraq, o heç zaman elmlə əlaqələrini kəsməyib, öz elmi tədqiqatlarını layiqincə davam etdirib. Görkəmli alim 1969-cu ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü və vitse-prezidenti seçildikdən sonra isə özünü həmişəlik elmə həsr edib.

Yubiley tədbirində AMEA Biologiya və Tibb Elmləri Bölməsinin akademik-katibi, akademik Əhliman Əmiraslanov alimin səhiyyə və tibb elmi sahəsində fəaliyyəti barədə geniş danışıb. Vurğulayıb ki, 1954-cü ildə Vəli Axundov Azərbaycan SSR-in səhiyyə naziri vəzifəsində çalışdığı müddətdə bu sahədə mühüm addımlar atılıb, ciddi irəliləyişlər əldə edilib. Azərbaycan tibb təhsili sisteminin, tibb elminin müharibədən sonrakı problemlərinin aradan qaldırılmasına və bu sahələrdə islahatların aparılmasına hər zaman böyük diqqət göstərib. Alim respublikada səhiyyənin səmərəsinin artırılması, əhalinin sağlamlığının qorunması istiqamətində əvəzsiz işlər görərək səhiyyənin ən bacarıqlı təşkilatçılarından biri olduğunu sübut edib.

Çıxış üçün söz alan Milli Məclisin deputatı, Qafqazşünaslıq İnstitutunun direktoru, professor Musa Qasımlı V.Axundovun ictimi-siyasi fəaliyyətindən danışıb. Professor 1918-ci ildən 2005-ci ilədək olan dövrdə respublikada hökumətə rəhbərlik etmiş şəxslərin bioqrafiyasından bəhs edən "Azərbaycan baş nazirləri" kitabı üçün materiallar toplayarkən V.Axundova dair rast gəldiyi bir sıra məxfi arxiv sənədləri ilə tanış olduğunu bildirib. Bu sənədlərdə həmin illərin ictimai-siyasi vəziyyətinə baxmayaraq Ermənistanın əsassız ərazi iddialarına qarşı V.Axundovun münasibəti və digər bu kimi tarixi faktların öz əksini tapdığını qeyd edib. Vurğulanıb ki, mürəkkəb situasiyaların baş verdiyi bir dövrdə respublikaya rəhbərlik etmək asan məsələ deyildi. Biliyinə, zəkasına və idarəetmə qabiliyyətinə görə V.Axundov bu çətin işin öhdəsindən gələrək 10 il respublikaya rəhbərlik edib.

Tədbirdə akademik Vəli Axundov adına Milli Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun direktor müavini, professor Həqiqət Qədirova alimin səhiyyə təşkilatçılığı sahəsində fəaliyyəti barədə çıxış edib. Bildirilib ki, V.Axundovun Elmi-Tədqiqat Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun direktoru olduğu müddətdə elmi informasiyanın işlənməsi, kadr hazırlığı və digər sahələrdə inqilabi dəyişikliklər baş verib. Onun rəhbərliyi ilə institutda çoxlu sayda fəlsəfə və elmlər doktoru dissertasiyaları müdafiə olunub.

Yubiley mərasimində daha sonra çıxış edən Mikrobiologiya İnstitutunun direktoru, akademik Məmməd Salmanov, Azərbaycan Tibb Universitetinin epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayev Vəli Axundovun tibb sahəsinin inkişafındakı xidmətlərindən, yüksək insani keyfiyyətlərindən söz açıb, akademiklə bağlı xatirələrini bölüşüblər.

Alimin qızı Nigar Axundova atasının xatirəsinə göstərilən yüksək hörmət və ehtirama görə ölkə başçısı İlham Əliyevə minnətdarlığını bildirib. Nigar Axundova tədbirin belə yüksək səviyyədə təşkilinə görə təşkilatçılara və həmçinin mərasim iştirakçılarına təşəkkür edib.

Sonda görkəmli akademikin həyat və fəaliyyətinə həsr edilən film nümayiş olunub.

**Samirə KƏRİMOVA,**
*"Azərbaycan müəllimi"*